# 23 dekabr bələdiyyə seçkiləri günüdür

## Seçicilərlə görüşlər keçirilir

***23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı təbliğat kompaniyasını davam etdirir.***

***Yeni Azərbaycan Partiyası Rayon təşkilatının fəalları, partiya tərəfindən bələdiyyə üzvlüyünə irəli sürülmüş namizədlər müntəzəm olaraq seçicilərlə görüşür, bələdiyyələrə seçildikləri təqdirdə görəcəkləri işlər barədə onları məlumatlandırırlar. Əvvəlki seçkilərdə bələdiyyələrdə təmsil olunmuş və yenidən YAP rayon təşkilatı tərəfindən irəli sürülmüş namizədlər bu müddət ərzində gördükləri işlər barədə də seçicilərə hesabat verirlər.***

### Nohurqışlaq kəndi



Dekabrın 4-də Nohurqışlaq kəndində YAP rayon təşkilatı tərəfindən bu bələdiyyəyə namizəd göstərilənlərlə seçicilərin görüşü olmuşdur. Görüşü Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açmışdır. Rayon təşkilatının sədri sosial-iqtisadi quruculuq sahəsində ölkədə, rayonda o cümlədən Nohurqışlaq kəndində həyata keçirilən və nəzərdə tutulan layihələrdən danışmış, bələdiyyərin bu layihələrin həyata keçirilməsindəki rolunu dəyərləndirmişdir.

Söz bələdiyyə üzvlüyünə namizədlərə verilmişdir. Bələdiyyə üzvlüyünə YAP rayon təşkilatı tərəfindən namizədliyi irəli sürülmüş Adil Əzimov, Pərvanə Abdulhüseynova, Billurə Əzimova, Elbrus Məmmədov və başqaalrı çıxış edərək bələdiyyə üzvü seçilərlərsə görəcəkləri işlərdən danışmışlar. Bələdiyyə üzvlüyünə namizədlər seçicilərin suallarını cavablandırmışlar.

Tədbiri YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov yekunlaşdırmış, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırmışdır.

### Bum qəsəbəsi

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən Bum bələdiyyəsinə irəli sürülmüş namizədlərlə görüş keçirilmişdir. Görüşü Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Abil Ağasəfov açmışdır. Rayon təşkilatının sədri ölkəmizdə gedən sürətli sosial-iqtisadi, quruculuq fonunda bələdiyyələrin öhdəsinə düşən vəzifələrdən danışmışdır. Söz bələdiyyə üzvlüyünə namizədlərə verilmişdir. Namizədliyi yenidən irəli sürülmüş qəsəbə bələdiyyəsinin hazırlı sədri Əddin Həsənov ötən dövr ərzindəki fəaliyyəti barədə seçicilərə hesabat vermiş, seçicilər yenidən ona etimad göstərərlərsə görəcəkləri işlərdən danışmışdır.



Yeni Azərbaycan Partiyası veteranı Tahir Hacıyev, namizədlərdən Səfa Aslanov, Arzu Yaqubova, Telman Əfəndiyev, Fərhad Yaqubov çıxış ediblər.

Tədbiri YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov yekunlaşdırmışdır.

### Aydınqışlaq kəndi



Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən Aydınqışlaq bələdiyyəsinə irəli sürülmüş namizədlərlə seçicilərin görüşü keçirilmişdir. Tədbiri rayon təşkilatının sədri Abil Ağasəfov açmış, ölkəmizdəki sosial-iqtisadi quruculuq sahəsində bələdiyyələrin üzərinə düşən vəzifələrdən danışmışdır. Təşkilat sədri bildirmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyevin bütün sahələrdə başladığı yeni islahatlar kursu bələdiyyələrin də üzərinə böyük vəzifələr qoyur. Ümidvarıq ki, 23 dekabrda seçiləcək bələdiyyələr bu vəzifələrin yerinə yetirilməsi üçün əllərindən gələni edəcəklər.

Bələdiyyə üzvlüyünə namizəd İmran Cabbarov və başqaları çıxış edərək seçicilərin onlara etimad göstərəcəyi təqdirdə görəcəkləri işlərdən danışmışlar.

Seçicilərdən Aləddin İskəndərov, Bədrəddin Nəsirov, Sənani Məmmədov və başqaları çıxış edərək bələdiyyə üzvlüyünə namizədlər barədə öz mülahizələrini söyləmiş, seçkilərdə fəal iştirak edəcəklərini bildirmişlər.

Seçicilərin sualları cavablandırılmışdır.

### Böyük Pirəli kəndi

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən Böyük Pirəli bələdiyyəsinə irəli sürülmüş namizədlərlə seçicilərin görüşü keçirilmişdir.

Görüşü YAP rayon təşkilatının sədri Abil Ağasəfov açmışdır. Təşkilat sədri bildirmişdir ki, qarşıdan gələn bələdiyyə seçkiləri ölkəmizdə sosial-iqtisadi inkişafın, köklü islahatların yeni mərhələsinə təsadüf edir. Ona görə də YAP Qəbələ Rayon Təşkilatı müasir çağırışlara cavab verəcək bələdiyyələrin formalaşmasını nəzərə alaraq daha hazırlıqlı YAP üzvlərini bələdiyyələrə namizəd irəli sürmüşdür. Ümidvarıq ki, seçicilər Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklər.

Bələdiyyə üzvlüyünə namizədlərdən Ramin Hidayətov, Məlakxanım Qismətli, seçicilərdən Sahib Vahabov, Fuad Abdullayev və başqaları çıxış etmişlər.

Bələdiyyə üzvlüyünə namizədlər seçicilərin çoxsaylı suallarını cavablandırmışlar.

### Tüntül kəndi

Dekabrın 4-də Tüntül kəndində Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən Tüntül bələdiyyəsinə namizəd göstərilmiş partiya üzvləri ilə seçicilərin görüşü olmuşdur.





Görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açmışdır. Rayon təşkilatının sədri ölkəmizdə, rayonumuzda və Tüntül kəndində sosial-iqtisadi, abadlıq quruculuq sahəsində baş verən yeniliklərdən bəhs etmiş, bələdiyyələrin rolundan danışmışdır. O bildirmişdir ki, YAP rayon təşkilatı bələdiyyələrə seçilmək üçün əhali arasında nüfuzu olan, bacarıqlı YAP üzvlərinin namizədliyini irəli sürmüşdür. Seçicilər onları yaxşı tanıyır. Ümidvarıq ki, dekabrın 23-də seçicilər həmin namizədlərə səs verəcəklər.

Bələdiyyə üzvlüyünə namizədlərdən Günel Ağayeva, Aynur Abduxalıqova, Təbriz Kərimov, Dursun İsayev və başqaları çıxış edərək onların bələdiyyəyə seçilmək üçün namizədliyini irəli sürmüş Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatına təşəkkür etmiş, əgər seçicilər də onları dəstəkləyərsə bu etimadı doğruldacaqlarını bildirmişlər.

Görüşdə iştirak edən seçicilər kənddə həlli vacib olan bir sıra məsələlər barədə (içməli su, suvarma suyu ilə təminat) təkliflərini vermiş, ümid etdiklərini bildirmişlər ki, yeni formalaşacaq Tüntül bələdiyyəsi bu məsələlərin həllində fəal roy oynayacaq.

Görüşü YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov yekunlaşdırmış, seçiciləri partiyanın namizədlərinə səs verməyə çağırmışdır.

### Mirzəbəyli kəndi

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən Mirzəbəyli bələdiyyəsinə irəli sürülmüş namizədlərlə seçicilərin görüşü keçirilmişdir. Görüşü YAP rayon təşkilatının sədri Abil Ağasəfov açmışdır. Rayon təşkilatının sədri ölkəmizdə, rayonumuzda o cümlədən Mirzəbəyli bələdiyyəsinin əhatəsində olan kəndlərdə həyata keçirilən sosial-iqtisadi, abadlıq-quruculuq tədbirlərindən danışmış, bu sahədə bələdiyyələrin üzərinə düşən vəzifələrdən bəhs etmişdir.



Söz bələdiyyə üzvlüyünə namizədlərə və seçicilərə verilmişdir.

Bələdiyyə üzvlüyünə namizədlərdən Vüqar Əliyev, İsmayıl Məhərrəmov, Nadir Qaçayev seçiləcəkləri halda görəcəkləri işlərdən danışmışlar. Seçicilərdən Feyruz Əzizov, Səməd Səmədov, Əmanət İsrəfilov və başqaları çıxış etmişlər. Bələdiyyə üzvlüyünə namizədlər seçicilərin suallarını cavablandırmışlar.